**“Təsdiq edirəm”**

**Sumqayıt Dövlət Universitetinin rektoru**

**____________________ dos. R.E.Əzizov**

**“_____” __________________ 2024-cü il**

# ELMİ-TƏDQİQAT STRATEGİYASI

Sumqayıt Dövlət Universitetinin

Elmi Şurasının 23.09.2024-cü il tarixli iclasının (protokol №2) qərarı ilə təsdiq edilmişdir

**Sumqayıt - 2024**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

**ELMİ-TƏDQİQAT STRATEGİYASI**

Elmi-tədqiqat strategiyası (ETS) Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 27 dekabr 2023-cü il tarixli iclasının qərarı (protokol No 3) ilə təsdiqlənmiş "Strateji İnkişaf Planı"nın tərkib hissəsidir. ETS Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına, elmi-tədqiqat sahəsində mövcud olan qanunvericiliyə, dövlət proqramlarına, Azərbaycan Respublikası elm və təhsil nazirinin əmrlərinə, beynəlxalq təcrübəyə və Universitetinin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır. Elmi-tədqiqat strategiyası ilə məqsəd elm və innovasiyalar potensialını gücləndirməkdir. Sumqayıt Dövlət Universitetinin elmi-tədqiqat prosesi 4 hissədən ibarətdir:

1. Elmi-tədqiqat strategiyası;
2. Tədqiqat resursları;
3. Elmi-tədqiqat fəaliyyəti;
4. Akademik dürüstlük mexanizmi;

Strateji İnkişaf Planından irəli gələn məqsədlər çərçivəsində Sumqayıt Dövlət Universitetinin 2024-2028-ci illəri əhatə edən elmi-tədqiqat strategiyası aşağıdakı hədəflərin həyata keçirilməsi planlaşdırılır:

1. Mövcud tədqiqat infrastrukturunun (laboratoriya) yenilənməsi;
2. SDU-nun və xarici universitetlərin tədqiqatçılarının birgə elmi-tədqiqatlarının aparılmasının təşkili (elmi məqalələrinin və materiallarının yüksək indeksli jurnallarda və konfrans toplularında nəşr edilməsi);
3. SDU-nun professor-müəllim heyətinin elmi tədqiqat fəaliyyətinin təşviq və mükafatlandırma mexanizminin hazırlanması və beynəlxalq elmi-metrik bazalarda (SCOPUS və Web of Science) indekslənən jurnallarda məqalələrinin dərc olunmasının təşkili;
4. SDU müəllim-tələbə heyətinin müəllifi olduğu elmi tədqiqat işlərinə qoyulan tələbləri, vəsatət qaldırmaq üçün meyarları və s. əks etdirən mexanizmlərin hazırlanması;
5. Yerli və beynəlxalq elmi konfransların təşkili.

Elmi-tədqiqatların tədrisə inteqrasiyası və innovasiyaların dəstəklənməsi beynəlxalq standartlara uyğun kadr hazırlığı missiyasına əsasən strateji hədəflər müəyyənləşdirilmişdir. Hədəflər müəyyən edilərkən daxili və xarici maraqlı tərəflərin təklifləri nəzərə alınmışdır. Bu hədəflər ilə Sumqayıt Dövlət Universiteti elmi-tədqiqat fəaliyyətini gücləndirməyi, elmi-tədqiqat ilə məhsulları əldə etməyi, elmi nəşrlər və redaksiya fəaliyyətini mükəmməlləşdirməyi, elmi tədbirlərin təşkilini müasirləşdirməyi, professor-müəllim heyəti və gənc tədqiqatçıların əqli mülkiyyətlərinin və müəllif hüquqlarının müdafiəsini, elmi nəşrlərin arxivləşdirilməsini, innovasiya fəaliyyəti və texnologiyalar transferini artırmağı və tədqiqat ilə tədrisin vəhdətini təşkil etməyi planlaşdırır.

Universitetin elmi-tədqiqat fəaliyyət strategiyasına əsaslanan prioritet tədqiqat sahələri aşağıdaklardır:

- 1203.01 – Kompüter elmləri
- 3341.01–Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər
- 2314.01 – Neft kimyası
- 3303.01 – Kimya texnologiyası və mühəndisliyi
- 2426.01 – Ekologiya (elm sahələri üzrə)
- 5312.01 – Sahə iqtisadiyyatı
- 5304.01 – İqtisadi fəaliyyət növləri
- 5408.01 – Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası

**Hədəf 1. Mövcud tədqiqat infrastrukturunun (laboratoriya) yenilənməsi**

SDU-da müxtəlif istiqamətlər üzrə aparılan elmi-tədqiqat işlərinin müasir elmi problemlərə həsr olunması, alınan nəticələrin səmərəliliyinin artırılması, Sumqayıt şəhəri və onun ətrafında fəaliyyət göstərən sənaye və istehsalat müəssisələrində geniş tətbiqini tapması məqsədilə həyata keçirilən elmi-tədqiqat işlərinin mövzuların aktuallığı təmin edilir. Bu hədəfin reallaşdırılması isə elmi-tədqiqatların həyata keçirilməsi üçün infrastrukturun daim diqqətə saxlanılmasını tələb edir. İlk hədəf elmi-tədqiqat işinin təşkili üçün maddi-texniki baza olan infrastrukturun təkmilləşdirilməsidir. Hədəfin ölçü indikatoru olaraq hər il iki ədəd olmaqla mövcud laboratoriyaların yenilənməsi müəyyənləşdirilmişdir.

**1.1. Prioritetlər**

1.1.1. Mövcud laboratoriyaların yenilənməsi;

1.1.2. Laboratoriyalarda elmi-tədqiqat fəaliyyətinin təkmilləşdirilməsi;

1.1.3. Elmi-tədqiqat fəaliyyətinin öyrənilməsi və davamlılığının təmini üçün tədrisə inteqrasiya edilməsi.

### Hədəf 2. SDU-nun və xarici universitetlərin tədqiqatçılarının birgə elmi-tədqiqatlarının aparılmasının təşkili (elmi məqalələrinin və materiallarının yüksək indeksli jurnallarda və konfrans toplularında nəşr edilməsi)

Elmi fəaliyyətin təşkili qapalı mühitin məhsul deyildir. Belə ki, bütün sahələrdə inkişafın təməlində elmi-tədqiqat fəaliyyəti vardır. Bu məqsədlə SDU-nin tədqiqatçılarını xarici universitet və tədqiqat mərkəzləri ilə əməkdaşlıq çərçivəsində onların tədqiqatçıları ilə birgə elmi-tədqiqata yönləndirmək hədəf kimi müəyyənləşdirilmişdir. Əvvəlki tədris ilinə nisbətdə birgə elmi-tədqiqat işlərinin sayını 20% nisbətində artırmaq hədəfin ölçü indikatorudur.

**2.1. Prioritetlər**

2.1.1. Birgə elmi-tədqiqat imkanlarının genişləndirilməsi;

2.1.2. Elmi-tədqiqat nəticələrinin yüksək indeksli jurnallarda və elmi tədbirlərin toplularında nəşrinə nail olunması.

### Hədəf 3. SDU-nun professor-müəllim heyətinin elmi tədqiqat fəaliyyətinin təşviq və mükafatlandırma mexanizminin hazırlanması və beynəlxalq elmi-metrik bazalarda SCOPUS və Web of Science-da indekslənən jurnallarda məqalələrinin dərc olunmasının təşkili

Professor-müəllim heyətinin və gənc tədqiqatçıların elmi-tədqiqat işlərinin mühüm nəticələri elmi jurnallarda və konfrans toplularında öz əksini tapır. Universitetin inkişaf etməsi üçün bu məlumatlar tanına və beynəlxalq məlumat bazalarında indeksləşən elmi nəşrlərdə dərc olunması müasir dövrün tələbidir. Hədəfin ölçü indikatorları, Elmi-tədqiqat fəaliyyətinin təşviqi üçün mexanizm sənədinin hazırlanması və SCOPUS və Web of Science-da indekslənən jurnallarda tədqiqatçıların məqalə saylarının əvvəlki ilə görə 20% nisbətində artırılmasıdır.

**3.1. Prioritetlər**

3.1.1. Professor-müəllim və gənc tədqiqatçıların elmi-tədqiqatla məşğul olması üçün təşviq edilməsi;

3.1.2. Elmi-tədqiqat fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi üçün təşviq mexanizminin formalaşdırılması;

3.1.3. Tədqiqatçıları xüsusi ilə SCOPUS və Web of Science-da indekslənən jurnallara yönəlməsi.

## Hədəf 4. SDU müəllim-tələbə heyətinin müəllifi olduğu elmi tədqiqat işlərinə qoyulan tələbləri, vəsatət qaldırmaq üçün meyarları və s. əks etdirən mexanizmlərin hazırlanması

Qloballaşma və süni intellektin inkişafı ilə tədqiqat bacarıqlarına olan tələblər də dəyişməkdədir. Bu dəyişiklik və inkişaf eyni zamanda əqli mülkiyyət hüquqlarının sahiblərinin hüquqlarını qorumaq, sözügedən sahədə bilik və informasiyanı cəmiyyətə çatdırmaq və bu fəaliyyəti həyata keçirərkən əqli mülkiyyət hüquqlarının tənzimlənməsi ilə bağlı qabaqcıl prinsip və standartları əsas götürmək müasir tədqiqat universitetlərinin vacib olan işlərdən biridir. Əqli mülkiyyət hüquqları, süni intellekt və ümumilikdə qloballaşma ilə elmi-tədqiqat fəaliyyətinə qarşı yanaşmalar da sürətli şəkildə dəyişməkdədir. SDU-da müasir dövrün tələblərinə uyğun elmi-tədqiqat fəaliyyətinin təşkili istiqamətində işlər görülməkdədir. Professor-müəllim və tələbələrin elmi-fəaliyyətini stimullaşdıran, beynəlxalq standartlara uyğun meyarlara əsaslanan mexanizm sənədinin hazırlanması hədəfin ölçü indikatoru olaraq müəyyənləşdirilmişdir.

4.1. **Prioritetlər**

4.1.1. Professor-müəllim və tələbə heyətinin elmi-tədqiqat fəaliyyətinin əqli mülkiyyət hüquqları çərçivəsində, beynəlxalq standartlara uyğunlaşdırılması;

4.1.2. Elmi-tədqiqat işlərinin qlobal elm ədəbiyyatı və uyğun tələblər çərçivəsində dizayn edilməsi;

4.1.3. Elmi-tədqiqat işlərinin formalaşdırılması istiqamətində mexanizmlərin hazırlanması.

### Hədəf 5. Yerli və beynəlxalq elmi konfransların təşkili

Universitetdə keçirilən elmi tədbirlərin (simpozium, konfrans, konqres və s.) aktual mövzulara həsr olunması diqqət mərkəzindədir. Elmi tədbirlərdə yerli və xarici mütəxəssislərin cəlbi, gənc tədqiqatçıların iştirakı maraq dairəsindədir. Hər təqvim ilində ən az bir beynəlxalq və iki respublika səviyyəli elmi tədbirlərin təşkil edilməsi bu hədəfin ölçü indikatoru olaraq müəyyənləşdirilmişdir.

**5.1. Prioritetlər**

5.1.1. Müasir çağırışlara uyğun elmi tədbirlərin təşkili mədəniyyətinin formalaşdırılması;

5.1.2. Yerli və beynəlxalq elmi tədbirlərin təşkilinin davamlılığının təmin edilməsi;

5.1.3. Bir neçə xarici universitetlər ilə birgə elmi tədbirlərin təşkil edilməsi.

## İstinadlar

### Rəsmi istinadlar


1. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı, https://e-qanun.az/framework/40711
2. Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 nömrəli qərarı, https://frameworks.eqanun.az/20/c_f_20842.html
3. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası - Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı, https://e-qanun.az/framework/25029
4. Azərbaycan Respublikasının “Elm haqqında“ Qanunu,14 iyun 2016-cı il № 271-VQ https://e-qanun.az/framework/33488
5. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 saylı Fərmanı, https://e-qanun.az/framework/34254
6. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, 19 iyun 2009-cu il № 833-IIIQ https://e-qanun.az/framework/18343
7. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası - Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı, https://president.az/az/articles/view/9779

8. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”, Azərbaycan Respublikası Prezidentinin 2015- ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı, https://e-qanun.az/framework/29145
9. “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmişdir https://e-qanun.az/framework/19800
10. “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə” – 20 aprel 1998-ci il https://edu.gov.az/upload/file/disertasiya-mudafiesi-haqda-esasname.pdf
11. “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları” - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmişdir https://e-qanun.az/framework/19534
12. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında“ Azərbaycan Respublikasının Qanunu. 5 iyun 1996-cı il № 115-IQ https://e-qanun.az/framework/4167

**Qeyri-rəsmi istinadlar**

1. ABŞ-nın Florida Universitetinin Strateji İnkişaf Planı https://facilities.ufl.edu/campus-planning/strategic-development-plan/
2. Envisio 3 exceptioanl examples of strategic planning in higher education https://facilities.ufl.edu/campus-planning/strategic-development-plan/
3. Kanadanın Viktoriya Universitetinin Elmi Strategiya Planı https://www.uvic.ca/science/assets/docs/science-strat-plan-for-web.pdf
4. Science Europe təşkilatının Avropa Elm Strategiyası: 2021-2026 https://scienceeurope.org/media/wzufetmc/20210617_se_strategy.pdf
5. Türkiyə Respublikasının Orta Şərq Texniki Universitetinin Strateji İnkişaf Planı https://sp.metu.edu.tr/system/files/SP_2023-27-ENG.pdf